**İsgəndərzadə Aytən Murman qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
isgandarzadaa@gmail.com

# FƏNLƏRARASI İNTEQRASİYANIN REALLAŞDIRILMASINNIN ZƏRURƏTİ

***Açar sözlər***: *təlim, riyaziyyat təlimi, inteqrasiya, ədəbiyyat təlimi, fənlərarası əlaqə.*
***Key words:*** *education, teaching maths, integration, teaching literature, interdisciplinary relation.*
***Ключевые слова***: *обучение, обучение математике, интеграция, обучение литературе, межпредметные связи.*

Tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin daha maraqlı və məzmunlu təşkili, uşaqlarda tədqiqatçılıq, elmlilik meyillərinin inkişafı üçün çox vacib şərtdir.

Fənlərarası inteqrasiya bir neçə fənnə aid olduğu ortaq bilik və bacarıqların sintezi olmaqla yanaşı, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına kömək edir. Bundan başqa, bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə təlim prosesinin keyfiyyətinin artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə kömək edir. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan başqa, fənlərarası və fəndaxili inteqrasiya şagirdləri interaktiv öyrənməyə yönəldir, onların təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt müddətində çox, həm də bir-biri ilə sıx əlaqədə olan biliklərə yiyələnirlər. Bu məqsədlə şagirdləri inteqrativ biliklər əldə etmək üçün hazırlayan fənlərarası əlaqəyə çox böyük diqqət verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün fənlər üzrə proqram materiallarına həm yaxşı bələd olmalı, həm də fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən mənimsəməlidir.

Fənlərarası inteqrasiya prosesində bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır, nəticədə, biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin olunur.

Belə nəticəyə gəlmək olar ki, fənlərarası inteqrasiya tədrisin keyfiyyətini yüksəldir, şagirdlərin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Buna görə də məktəblərdə təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxılmalı, şagirdlər həyat boyu öyrənməyə hazırlanmalıdır.

Müasir həyatımızda hər şey inkişafa doğru getdiyi bir zamanda təhsildə də fənlərin bir-birinə inteqrasiyasına yaranan ehtiyac göz qabağındadır. Bildiyimiz kimi, qədim zamanlardan fənlər və elmlər bir-biri ilə sıx əlaqədə olmuş və onlar arasındakı əlaqə bu gün də aktualdır. Bəşər tarixi elm və texnikanın məhz elmlərin bir-biri ilə qarşılıqlı əlaqəsi nəticəsində çox uğurlar qazandığının şahidi olmuşdur və bu uğurlar elmlərin bir-birinə daha da yaxınlaşmasında mühüm rol oynamışdır. Bu əlaqə bu gün təhsildə daha önəmlidir, çünki kurikulumda əsas prinsip kimi verilən fənlərarası inteqrasiyanın təlimin keyfiyyətinin yüksəldilməsində rolu əvəzsizdir.

Fənlərarası inteqrasiya ədəbiyyat fənni üçün də çox vacib və əhəmiyyətlidir. Hər şeydən əvvəl, ədəbiyyat həyatı bədii sözlə əks etdirən söz sənəti olduğu üçün digər elm sahələri ilə ya birbaşa, ya da qismən əlaqəsi vardır. Belə ki, ədəbiyyat tarixə, elmə, mədəniyyətə dair bədii, elmi və fəlsəfi əsərləri özündə əks etdirir.

Ədəbiyyat fənninin digər fənlərlə inteqrasiyasından danışarkən, məntiqli olaraq onun ilk əlaqəsi Azərbaycan dili fənni ilə düşünülür. Nəzərə alsaq ki, bu iki fənnin məzmun xətlərinin ikisinin mahiyyəti (ədəbiyyatda 2. Şifahi nitq və 3. Yazılı nitq və Azərbaycan dilində 2. Oxu və 3. Yazı) eynidir, onda bu fənlərin bütün siniflərdə və mövzulardakı daimi inteqrasiyasını təxmin etmək çətin deyil.

Ədəbiyyat fənni öz mahiyyətinə görə inteqrativ xaraktera malikdir. Çünki bədii ədəbiyyatın , məsələn, həyatı obrazlı şəkildə əksi məhz onun inteqrativlik xüsusiyyətinin əsas göstəricisidir. Ədəbiyyat ətraf aləm haqqında çox zəngin informasiya mənbəyi olduğundan insanların bir şəzsiyyət kimi formalaşmasında rolu danılmazdır.

Ədəbiyyat elə fənlərdəndir ki, başqqa fənləri – Azərbaycan dili, tarix, riyaziyyat, informatika, coğrafiya, həyat bilgisi, təsviri incəsənət və s. özündə inteqrasiya edə bilir. Bu baxından ədəbiyyat dərslikləri hazırlanarkən ədəbiyyatımızın geniş imkanları nəzərə alınaraq, elə mövzular seçilib salınmışdır ki, bu mövzular şagirdlərin mənəvi aləminin, estetik zövglərinin inkişaf olunmasında təsirli ola bilsin.

Ədəbiyyat fənni üzrə yeni təhsil proqramında mövzunun şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsi üçün fənlərarası əlaqə - inteqrasiyadan geniş istifadə olunur. Bu proqramda inteqrasiya cədvəl şəklində təqdim olunur. Ədəbiyyat fənni üzrə məzmun standartlarından daha səmərəli istifadə etmək məqsədilə dərs zamanı fənlərarası inteqrasiya ön plana çəkilir. Belə dərslər inteqrativliyin reallaşdırması yollarından olduğu üçün müəllimlərdən geniş bilik, bacarıq, böyük zəhmət tələb edir. İnteqrasiya bir anlayış kimi son dövrlərdə təlim prosesində istifadə olunmağa başlanıb. “İnteqrasiya bədii materialın məzmunundadır, ədəbi-bədii nümunə də dərsliklərdə inteqrativ şəkildə verilir. Hər hansı bir ədəbi fakt bu və ya digər informasiya ilə əlaqələndirilərkən, həmin faktın dəqiqliyi xüsusi əhəmiyyət kəsb edir. Ona görə də inteqrasiya dəqiq olmalıdır. Dəqiq olmayan interativ fikir şagirdlərin biliyinin əhatəliyinə kömək edə bilməz”(2, 7).

Təbiətin sirlərini öyrənməyə cəhd edən insan bizim dövrümüzdə nanotexnologiya, biotexnologiya və bu kimi digər yüksək texnologiyaları kəşf etməklə arzusuna bir qədər də yaxınlaşdı, başqa sözlə desək, millimetr dəqiqliyi də insanı qane etmədi. Bu bir həqiqətdir ki, sirli dünyanı daha dəqiq öyrəndikcə, yeni sirlərin gizləndiyi daha dərinliklərə getməyin zəruri olduğu meydana çıxır. Ona görə heç də təsadüfi deyil ki, son yüzilliklərdə hər bir əsr sonda həmin əsr üçün daha çox əhəmiyyətli olan müəyyən bir elmi nailiyyətlə əlaqələndirilir (məsələn, buxar maşını əsri, informasiya əsri və s.). Bu həqiqətlər elmə və təhsilə yeni yanaşma tələb edir. Artıq məlum olur ki, təbiətin daha dərin sirlərini və cəmiyyətin inkişaf qanunauyğunluqlarını öyrənmək üçün həm fundamental və təbiət elmləri, həm də humanitar və sosial elmlər bir-biri ilə qarşılıqlı əlaqəli şəkildə öyrənilməlidir. Maraqlıdır ki, hələ XX əsrin əvvəllərində açılan bizim Bakı Dövlət Universitetində, əslində elə bütün Avropa universitetlərində, bir neçə yaxın ixtisaslar birləşərək vahid fakültə kimi fəaliyyət göstərirdi. Məsələn, Fizika-riyaziyyat, Tarix-filologiya, Geologiya-coğrafiya və s. Lakinn o dövrlərdə belə birləşmə kadr potensialının çatışmaması ilə əlaqədar idi və formal xarakter daşıyırdı. Ona görə keçən əsrin ortalarından başlayaraq hər bir elmin müstəqil sahə kimi öyrənilməsi tələbatı ortaya çıxdı və ayrı-ayrı fakültələr yarandı. XX əsrin sonlarında isə artıq həm çox yaxın, həm də fərqli ixtisasların birləşməsi (məsələn, biofizika, biokimya, riyazi dilçilik, tarixi geologiya, ekologiya hüququ və s.) zərurəti yarandı ki, bu da bir neçə elmin vahid məcrada öyrənilməsini tələb edir. Elmlərin qovşağı artıq bir neçə onillikdir ki, dünyanı öz nəticələri ilə dəyişdirir. Məsələn, son illərdə elm üzrə Nobel mükafatına layiq görülmüş araşdırmaların əksəriyyəti iki, üç və daha artıq elmin qovşağında alınan nəticələrdir. Maraqlı olduğu üçün hamının bildiyi bir faktı qeyd edirik ki, məlum səbəblərə görə riyaziyyat üzrə Nobel mükafatı verilmədiyinə görə dünyanın böyük riyaziyyatçıları öz tədqiqatlarını İqtisadiyyat və fizika elmləri ilə qovuşduraraq bu mükafatı ala bilmişlər. Elmlərin sintezi nəticəsində əldə edilən uğurların artıq müəyyən tarixi vardır, elmlərin inteqrasiyası artıq bir ənənə halını almışdır. Bu məsələ qloballaşmanın vüsət aldığı müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir və zəruridir.

Beləliklə, ədəbiyyat təliminin riyaziyyat təlimi ilə əlaqələndirilməsi fənlərarası interasiya olub, riyazi anlayışlardan, simvollardan ədəbiyyat təlimində istifadə edilməsi zəruriliyi ilə əlaqədardır. Şagirdlərin dünyagörüşünün formalaşmasında, biliklərin zənginləşməsində, fəallığın təmin olunmasında, məzmunun hərtərəfli mənimsənilməsində inteqrasiyanın rolu danılmazdır. Təcrübə göstərir ki, təlimdə inteqrativlik məzmunun şəgirdlər tərəfindən hərtərəfli mənimsənilməsinə müsbət təsir edir. Bu o zaman mümkün olur ki, tədris olunan fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli-inteqrativ şəkildə tədris olunsun. Gördüyümüz kimi, bu da fənlərarası inteqraiyanın zəruriliyindən irəli gəlir.

## Ədəbiyyat:

1. Rüstəmov F.A., Paşayev Ə.X. Pedaqogika. Bakı, ADPU, 2010.
2. Yeni təhsil proqramlarının (kurikumların) tətbiqi məsələləri. Əhmədov A., Abbasov Ə. “Ümumi təhsildə inteqrasiya”, Bakı, Mütərcim, 2014.
3. Mikailov Ş., Bəkirova A. Ədəbiyyat dərslərində inteqrasiyadan istifadənin imkan və yolları. Bakı, 2006.
4. Максимова В.Н. Межпредметные связи в учебно-воспитательном

**The necessity of implementation of interdisciplinary integration**
**Summary**

Practice shows that integration in education positively affects acquiring comprehensive. Ths is only possible when the lessons aren't hold separately, are taught in integrative relation. In the article, applying integration and its necessity, its role in the development of the quality of education, interdisciplinary relation in Literature lessons, its necessity are mentioned. Literature has direct or or slightly relation with other branches of science. Actually literature concentrates scientific or philosophical works. In the article the relation between literature and other lessons, like Azerbaijani language, history, mathematics and others is mentioned, examples are given to these relations.

**Необходимость реализации межпредметных связей**
**Резюме**

Опыт оказывает, что интегративное обучение положительно влияет на всесторонне усвоение учащимися содержания образования. Это бывает возможным лишь в том случае, если дисциплины и относящиеся к ним темы будут обучаться не в отдельности, а в интегративном порядке. В статье повествуется о значении межпредметных связей на уроках литературы, о повышении качества и роли обучения, о внедрении интеграции и ее значении. Литература имеет прямые или косвенные связи с другими областями науки. Так,литература воплощает в себе художественные, научные и философские произведения об истории, науке, культуре. В статье говорится о связях литературы с такими предметами, как азербаджанский язык, история, математика и др.предметами, приведены примеры этих связей.

**Rəyçi: N.Qasımzadə**